Rüstəmli F.Ə.[♦]

DOI: 10.25108/2304-1730-1749.iolr.2021.64.90-98
UOT: 347.77

# Əqli mülkiyyətin milli qanunvericilik bazası və ÜTT sisteminin normativ təhlili

**Xülasə:** Əqli mülkiyyətə münasibətdə ümumidünyəvi tendensiya məqsədyönlü və ardıcıl olaraq əqli mülkiyyət hüquqlarının və sahiblərinin imkanlarının möhkəmləndirilməsinə yönəldilmişdir.ÜTT-yə üzv olmaqla dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesini sürətləndirmək, ÜTT-yə üzv olan ölkələrin bir-birinə verdikləri güzəştlərdən faydalanmaq, dünyanın əksər ölkələri ilə ÜTT tərəfindən qəbul edilmiş ümumi qaydalar əsasında ticarət əməliyyatları həyata keçirmək, ölkədə aparılan iqtisadi islahatlara beynəlxalq təşkilatlar, eləcə də inkişaf etmiş ölkələr tərəfindən yardımın artırılmasına nail olmaq, ÜTT qaydalarını tətbiq etdikdən sonra daha çox birbaşa xarici sərmayə cəlb etmək və ÜTT-nin mübahisələrin həlli mexanizmindən istifadə etmək imkanını əldə etmək mümkündür.Hazırda Azərbaycan Respublikasının ÜTT-yə üzvlük prosesi yekunlaşma mərhələsinə daxil olur. Hüquq sahəsində isə milli qanunvericiliyin ÜTT-nin müvafiq sazişlərinin tələblərinə uyğunlaşdırılması həm qanunvericiliyin təkmilləşdirilməsi (o cümlədən yeni qanunların qəbulu ilə), həm də ÜTT-nin qüvvədə olan aktlarına birbaşa istinad edilməsi yolu ilə həyata keçirilir. Azərbaycan Respublikasında bu gün də əqli mülkiyyət hüququ sahəsində qanunvericiliyin təkmilləşdirilməsi prosesi davam etməkdədir. Bu proses istər yeni qanunvericilik aktlarının qəbul olunması, istərsə də mövcud olan qanunvericiliklərə dəyişiklik olunması formasında həyata keçirilməkdədir. Bunun ilkin səbəbi ictimai münasibələrin bu qədər sürətlə inkişaf etməsi zəminində əqli mülkiyyət obyektlərinin də daimi olaraq dəyişməsidir. Səbəblərdən bir digəri isə ölkəmizin hüququn bir çox sahələrində olduğu kimi, o cümlədən də əqli mülkiyyət hüququ sahəsində də beynəlxalq hüquq normalarına qoşulmasıdır. Azərbaycan inteqrasiya prosesini genişləndirmək, daxili və xarici ticarətini təkmilləşdirmək üçün ÜTT –yə üzvlükdə maraqlıdır.

**Açar sözlər:** əqli mülkiyyət; ÜTT; Azərbaycan Respublikası; milli qanunvericilik.

Əqli mülkiyyət termini yüz iyirmi beş ildən çoxdur ki, beynəlxalq münasibətlərdə istifadə edilir. Ancaq 1967-ci ildən sonra beynəlxalq normativ aktlarda daha geniş istifadə olunmağa başlandı. Əqli mülkiyyət termini beynəlxalq hüquqda və XX əsrin ikinci yarısının əvvəllərində dövlətlər tərəfindən rəsmi olaraq təsdiqlənmiş beynəlxalq müqavilə və sazişlərdə görünməyə, həmçinin əqli fəaliyyətin nəticələrinin kütləvi şəkildə yayılmasından, xüsusilə intensiv kompyuter və telekommunikasiya texnologiyalarının geniş şəkildə bölüşdürülməsindən sonra daha aktiv şəkildə istifadə edilməyə başlanıldı.

Əqli mülkiyyət konsepsiyasının məzmununa nəzər yetirək:

- ədəbi, bədii və elmi əsərlər;

-sənətkarların fəaliyyətinin, səsyazma, radio və televiziya yayımlarının həyata keçirilməsi;

---

[♦] **Rüstəmli Fidan Əli qızı -** AMEA-nın Hüquq və İnsan Haqları İnstitunun “insan hüquqları” ixtisaslaşması üzrə doktorantı (Azərbaycan). E-mail: legal@agf.az

-insan fəaliyyətinin bütün sahələrində ixtiralar;

-elmi kəşflər;

-sənaye nümunələri;

-ticarət nişanları, xidmət markaları, ticarət adları və ticarət təyinatları;

-haqsız rəqabətdən qorunma;

-sənaye, elmi, ədəbi və bədii sahələrdə intellektual fəaliyyətlə əlaqəli bütün digər hüquqlar.

Bu tərifin strukturunun təhlili göstərir ki, əqli mülkiyyət konsepsiyasının məzmunu iki hüquq qrupunu əhatə edir:

-birincisi, "ədəbi, bədii və elmi əsərlər, ifaçılar, səs yazıları, radio və televiziya yayımları, insan fəaliyyətinin bütün sahələrində ixtiralar, elmi kəşflər, sənaye nümunələri, ticarət nişanları, xidmət markaları, ticarət adları və ticari təyinatlar, haqsız rəqabətə qarşı qorunma ilə əlaqəli hüquqlar";

-ikincisi, "sənaye, elmi, ədəbi və bədii sahələrdə intellektual fəaliyyətlə əlaqəli bütün digər hüquqlar".

Azərbaycan Respublikasının Konstitusiyası əqli mülkiyyət hüququnu tanıyır və bütün şəxslərin əqli mülkiyyət hüquqlarının qorunmasına təminat verir[2]. Konstitusiyanın normasını aydınlaşdırmaq və əqli mülkiyyət hüququnun qorunmasının hüquqi bazasını formalaşdırmaq üçün Azərbaycan Respublikasının Milli Məclisi bir sıra qanunlar qəbul edib və bir çox beynəlxalq razılaşmaları təsdiq edib. Aşağıdakı qanunlar əqli mülkiyyət hüququnu tənzimləyən əsas normativ aktlardır:

- 12 iyun 1998-ci il tarixli 504-IQ nömrəli "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Qanun;
- 25 iyul 1997-ci il tarixli 312-IQ nömrəli "Patent haqqında" Qanun;
- 5 iyul 1996-cı il tarixli 115-IQ nömrəli "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanun;
- 31 may 2002-ci il tarixli 337-IIQ nömrəli "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında" Qanun;
- 22 may 2012-ci il tarixli 365-IVQ nömrəli "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanun;
- 16 may 2003-cü il tarixli 460-IIQ nömrəli "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Qanun;
- 14 sentyabr 2004-cü il tarixli 755-IIQ nömrəli "Məlumat toplularının hüquqi qorunması haqqında" Qanun;
- 15 noyabr 1996-cı il tarixli 197-IQ nömrəli "Seleksiya nailiyyətləri haqqında" Qanun [1].

Azərbaycanda əqli mülkiyyət hüququnun müxtəlif sahələri üzrə səlahiyyətlər Müəllif Hüquqları üzrə Dövlət Agentliyi və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi arasında bölüşdürülmüşdür.

20 aprel 2018-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti "İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. Bu Sərəncamla Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ləğv edildi və Müəllif Hüquqları Agentliyinin və Patent və Əmtəə Nişanları Mərkəzinin birləşmə formasında yenidən təşkili yolu ilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi yaradıldı. Sərəncama əsasən,

Komitənin sənaye mülkiyyəti obyektlərinin mühafizəsi sahəsində səlahiyyətləri Əqli Mülkiyyət Agentliyinə verildi. 2018-ci il iyul ayında Agentliyin Nizamnaməsi hazırlanmışdır.

ÜTT çərçivəsində əqli mülkiyyət hüquqları TRİPS Sazişi ilə tənzimlənir[4]. Dövlətlər protokolu imzalayaraq ÜTT-yə üzv olduğu tarixdən etibarən, TRİPS sazişinin müddəalarını, hüquqların icrasına dair müddəaları da daxil olmaqla, heç bir keçid dövrü tətbiq etmədən tətbiq edəcəyini təsdiqləyir. TRİPS sazişinin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, əsas müddəalarından bəziləri əqli mülkiyyət hüquqları ilə bağlı əsas çoxtərəfli konvensiya və sazişlərdə yer alan normaları əks etdirir və bunlara adekvatdır, bəziləri isə qanunların tətbiq edilməsini və cinayətlərdən qorunmasını vurğulayır.

Ümumdünya Ticarət Təşkilatı (ÜTT) dünya ticarətinin tənzimlənməsində mühüm rola malik olan universal hökumətlərarası beynəlxalq təşkilatdır. Azərbaycan ÜTT-yə üzvolma prosesini 1997-ci ilin iyun ayından başlamışdır. Belə ki, 1997-ci ildə Azərbaycan ÜTT-yə üzv olmaq üçün rəsmi qaydada müraciət etmişdir. ÜTT-yə üzv olma həm mürəkkəb, həm də çox uzun müddət tələb edən bir prosesdir. Bu yalnız tariflərə dair sazişlərin və xarici ölkələr tərəfindən təklif olunacaq xidmətlər üçün güzəştlərin təhlili və qəbul edilməsi məsələsi deyil. Xarici ticarəti tənzimləyən normativ-hüquqi aktlan daxil etməklə, müraciət edən ölkənin xarici ticarətinə dair qanunlarının təkmilləşdirilməsi və onların müasirləşdirilməsi, gömrük, lisenziyalaşdırma, kvotalar və normalara uyğun bütün digər nəzarət növləri üçün tənzimləyici rejim yaradılması tələb olunur. 1986-cı ildə başlayan və 1994-cü ildə Ümumdünya Ticarət Təşkilatının təsis edilməsi ilə yekunlaşan Uruqvay Raundunda qəbul edilən sazişlər xarici ticarətin milli tənzimlənməsinin aydın, şəffaf və ədalətli olmasını tələb edir [3]. Ticarət qaydalarının ÜTT-nin tələblərinə uyğunlaşdırılması üzvolma prosesinin ən faydalı üstünlüyüdür. ÜTT-yə üzv olma qərarından asılı olmayaraq şəffaf və effektiv qanunlara malik olmaq hər bir ölkə üçün onun bütövlükdə inkişafı baxımından olduqca vacibdir.

Üzv olma prosesi ilə bağlı onu vurğulamaq vacibdir ki, müraciət edən ölkənin müraciətinin nəzərdən keçirilmə müddəti məhdudlaşdırılmır. Bu prosesin hətta sorğu-sual mərhələsi belə ÜTT-nin üzv ölkələri onu lazımi hesab edənədək davam edə bilər. Müraciət edən ölkə tərəfindən riayət olunmalı normalar və prosedurlar bütün ÜTT üzvlərinin imzaladığı va ya qoşulduğu sazişlərdə öz əksini tapmışdır. Sazişlərə birlikdə Çoxtərəfli Ticarət Danışıqlarının Uruqvay Raundu Sazişlərinin Nəticələri kimi istinad edilir, lakin daha çox Uruqvay Raundu Sazişləri kimi tanınır.

Uruqvay Raundu Sazişləri demək olar ki, tarixdə ilk dəfə ticarətin milli tənzimlənməsi üçün beynəlxalq qaydaların olduqca geniş məcmusunu yarada bilib [5].

ÜTT Sazişlərində təsbit olunan normaların imperativliyi bu təşkilatın ən əsas prinsiplərindən biridir. Məhz bu amil ÜTT-ni Tariflər və Ticarət üzrə Baş Sazişdən əsaslı şəkildə fərqləndirir [5]. Belə bir sərt tələbin qoyulması diqqəti ölkədaxili hüquq normalarının kolliziyası haqqında məsələnin həllinə yönəldir. Dünya təcrübəsində milli qanunvericiliyin ÜTT-nin hüquq normalarına uyğunlaşdırılması üç müxtəlif üsulla həyata keçirilir [6].

1. ÜTT sazişlərinin ölkədaxili qanunlar olaraq nəşr edilməsi;
2. ÜTT sazişlərində təsbit olunan normalarla milli qanunvericilik aktları arasında ziddiyət olduqda, ÜTT normalarının birbaşa tətbiqini qəbul etmək;
3. ÜTT-nin hüquq normalarını yeni qəbul edilən normativ-hüquqi aktlara daxil etmək.

Azərbaycan, öz növbəsində, məhz üçüncü üsuldan istifadə etməyə üstünlük verib. Formal nöqteyi nəzərdən belə fəaliyyət artıqdır, çünki Konstitusiyasının 151-ci maddəsinə əsasən, ölkəmizin tərəfdar çıxdığı dövlətlərarası müqavilələrin normaları birbaşa olaraq ölkənin daxili hüquq sisteminə daxil edilmişdir və milli qanunvericiliklə müqayisədə (konstitusiya və

referendumla qəbul edilən aktlar istisna olmaqla) daha üstün hüquqi qüvvəyə malikdir. Bir sıra amillər ÜTT sazişləri ilə təsbit olunan normaların Azərbaycanın hüquq sistemi tərəfindən resepsiya edilməsinə rəvac verdi və nəticədə qüvvədə olan qanunvericiliyə dəyişikliklərin edilməsi və yeni normativ-hüquqi aktların qəbul edilməsi kimi mürəkkəb bir işə başlanıldı. Lakin bu proses həm hüquq nəzəriyyəsində, həm də təcrübədə bir sıra problemlər yarada bilər. Problemlərdən biri, resepsiya olunmuş normaların köçürülməsi ilə bağlıdır. Bildiyimiz kimi, ÜTT-nin rəsmi dilləri ingilis, fransız və ispan dilləridir. Buna görə Azərbaycan qanunyaradıcılarının qarşısında normaların adekvat tərcüməsi məsələsi dururdu. Bu problemi dərinləşdirən bir məqam vardır ki, bu da tərcümənin ədəbi deyil, məhz hüquqi terminlərə əsaslanan və milli hüquq sisteminə uyğunlaşa biləcək hüquqi mətn şəklində olması ilə bağlıdır. ÜTT-nin bir çox normaları milli qanunvericiliyə dəqiqliklə o halda köçürülə bilər ki, qanunvericilər bu normaların necə yarandığını və inkişaf etdiyini, o cümlədən onların ÜTT-nin müxtəlif orqanlarının işi prosesində bu və ya digər terminlərin şərhi nəticəsində hansı mənanı əldə etdiyini bilmiş olsunlar. Digər potensial problem, üzv dövlətlərdə ÜTT normalarının birbaşa təsiri ilə bağlı ola bilər.

ÜTT-nin təsis edilməsi haqqında Saziş müəyyən edir ki, bütün sazişlər onun üzvləri üçün məcburidir. Lakin dünya ticarətində ən çox paya malik olan ÜTT üzvlərinin (Aİ, ABŞ, Yaponiya) istifadə etdikləri yanaşma metoduna görə ÜTT Sazişinin normaları bu ərazilərdə birbaşa təsirə malik deyildir. Bu cür yanaşma metodu həmin ölkələrin qanunvericilik sistemində də əks olunmuşdur [5]. Problemlərin aradan qaldırılması üçün qanunvericilik sistemində islahatların aparılması məqsədəuyğun bir addım hesab olunurdu. Bu sahədə dövlətin niyyəti Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması prosesi ilə əlaqədar qanunvericiliyin Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdınlması üzrə Tədbirlər Planı”nda öz əksini tapmışdır. Sözügedən planın yerinə yetirilməsi çərçivəsində bir sıra yeni qanunlar qəbul edildi və bir sıra qüvvədə olan normativ hüquqi aktlar təkmilləşdirildi [2]. Belə ki, bu qanun ÜTT sazişlərinin ölkədaxili qanunvericilik aktlarında birbaşa təsbit olunmasının bariz nümunəsidir. Qeyd edilən Qanunda ÜTT daxilində qüvvədə olan sazişlərin normalarının, daha dəqiq desək, 1994-cü il Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT) VII maddəsinin, VII maddənin tətbiq edilməsinə dair Razılaşmanın və onun əlavələrinin implementasiyasını aydın görmək olar [3].

Əqli mülkiyyət haqqında qanunvericilik sahəsinə gəldikdə isə, ÜTT-nin normaları ilə Azərbaycanın əqli mülkiyyət rejimi də üstüstə düşür. Bunun səbəbi, ilk növbədə, mənbələrin ümumiliyindədir. “Əqli Mülkiyyət Hüquqlarının Ticarət Aspektləri haqqında” Saziş (TRİPS) bu sahədəaşağıdakı əsas beynəlxalq konvensiyalara istinad edir: Paris, Bern, Roma Konvensiyası və 1989-cu il Vaşinqton müqaviləsi. Azərbaycan bu sazişlərdən ilk üçünə qoşulmuşdur. Əqli mülkiyyətlə bağlı danışıqların Azərbaycan üçün çətin olmayacağını artıq indidən ehtimal etmək mümkündür. Belə ki, ÜTT-nin tələblərinə uyğun olaraq Azərbaycan, sənaye mülkiyyətinin və əqli mülkiyyətin qorunması sahəsində əksər Konvensiyaların üzvüdür. Eyni zamanda, müəllif hüququ sahəsində milli qanunvericiliyin artıq ümumən uyğunlaşdınlması aparılmışdır. Bununla belə, bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bundan əlavə, qeyd etmək lazımdır ki, sənaye mülkiyyəti üzrə qanunvericiliyin TRİPS qaydalarına uyğunlaşdırılması üzrə hələ də müəyyən işlər görülməlidir. “İnteqral sxem topologiyalan hüququnun qorunması haqqında” və “Folklorun hüquqi qorunması haqqında” yeni qanunlar qəbul edilmişdir. ÜTT-nin hüquqi məkanı özünəməxsusluğu ilə seçilir. Bu amil Azərbaycan hüquqşünasları üçün çətinlik yarada bilər. Belə ki, bu təşkilatda hüquq mənbələrinin dairəsi Azərbaycanın imzaladığı sazişlərlə kifayətlənmir. ÜTT-nin öz işçiləri

bildirirlər ki, onların üzərində işlədikləri sistem - presedent hüququ sistemidir. Onu da qeyd etməliyik ki, ÜTT sazişləri özü-özlüyündə hüquqi nöqteyi nəzərdən mükəmməl deyillər. Bəzi hallarda onların mahiyyəti siyasi mülahizələrlə də əlaqələndirilmişdir. Hətta ÜTT Sazişlərinin yaradan şəxslər də qəbul edirlər ki, bu sazişlər bir çox köhnə problemləri həll etsə də, bir sıra yeni hüquqi problemlərin yaranmasına səbəb olublar. ÜTT sisteminin özünəməxsusluğu, həmçinin, hüquq pozuntusundan doğan mübahisələrin həlli məsələsində də özünü göstərir. Belə ki, mübahisələrin nizama salınması sistemi ÜTT-nin bütün üzvlərinin riayət etdikləri vahid məsuliyyət (öhdəlik) prinsipi üzərində qurulmuşdur. Bununla da üzv ölkələr beynəlxalq ticarət qaydalarının pozulduğu təqdirdə yaranmış problemləri hər hansı digər üsula əl atmadan təşkilat daxilində həll etmək öhdəliyini öz üzərlərinə götürürlər.

Bütün bunlardan görünür ki, Azərbaycan qanunvericiliyinin ÜTT normaları ilə uyğunlaşdırılması üçün hüquq elminin də qarşısında bir sıra həll edilməli olan məsələlər durur ki, onlardan biri də vahid, daxilən ziddiyyət təşkil etməyən qanunvericilik sisteminin formalaşdırılması və inkişaf etdirilməsidir. Bununla bağlı xüsusi ilə vurğulamaq istərdik ki, bu sahədə əhəmiyyətli işlər görülməkdədir. Belə ki, son dövrdə bir çox yeni qanunlar qəbul edilmiş, digərləri təkmilləşdirilmişdir və bu istiqamətdə işlər davam etdirilir. Müasir tələblərə cavab verən qanunvericilik bazasının formalaşdırılması Azərbaycanın ÜTT-yə üzv olmasının ən vacib üstünlüklərindən biridir. Onu da qeyd edək ki, ÜTT üzvləri Azərbaycanın ÜTT-yə üzv olması istiqamətində həyata keçirtdiyi siyasətini yaxından izləyirlər və keçirdikləri iclaslarda dəfələrlə bu məsələyə toxunublar. ÜTT üzvləri tərəfindən 21 fevral 2014-cü, 22 iyul 2016-cı il tarixində keçirilən iclaslar zamanı Azərbaycanın apardığı son ticari islahatlarla tanış olunmuş və bu islahatların ÜTT-nin qaydalarına uyğun olub-olmaması məsələsi müzakirəyə çıxarılmış, Azərbaycanın ticarət rejimi təhlil edilmişdir. İclasda İşçi Qrupunun 12-ci iclasından sonra bir sıra üzv ölkələr tərəfindən ünvanlanmış suallara Azərbaycan tərəfinin verdiyi cavablar müzakirə edilmişdir. Həmçinin, üzv ölkələr tərəfindən Azərbaycan üzrə İşçi Qrupu Hesabat Layihəsinin bölmələri üzrə suallar verilmiş və həmin suallar Azərbaycan nümayəndə heyəti tərəfindən cavablandırılmışdır. Üzvlər, həmçinin, son illərdə Azərbaycanın qanunvericilik sahəsində edilən dəyişiklikləri yüksək qiymətləndirərək Azərbaycanı bu inkişaf tempini aktiv şəkildə davam etdirməyə çağırdılar. 6 mart 2015-ci ildə keçirilən iclasda isə İşçi Qrupunun sədri V. Levalter Azərbaycanın öz ticarət rejiminin ÜTT-nin qaydalarına uyğunlaşdırılması istiqamətində atdığı addımları yüksək qiymətləndirərək ölkəmizin ÜTT-yə üzvolma prosesinin yekunlaşdırılmasının vacibliyini vurğuladı.

Bu gün Azərbaycan Respublikasında əqli mülkiyyət hüquqları sahəsində kifayət qədər çox normativ hüquqi aktlar mövcuddur. Hesab edirik ki, bu məsələ əqli mülkiyyət hüquqları sahəsində olan qanunvericilik aktlarının sistemləşdirilməsini tələb edir. Hüquq ədəbiyyatına nəzər salsaq qanunvericiliyin sistemləşdirilməsi dedikdə, oxşar qanunvericilik sisteminə daxil olan normativ aktlardan təcrübədə münasib, rahat və əlverişli qaydada istifadə etmək məqsədi ilə həmin aktların nizama salınmasının başa düşüldüyünü görə bilərik. Hüquq nəzəriyyəsində qanunvericiliyin sistemləşdirilməsinin aşağıda qeyd olunmuş 3 növü fərqləndirilir:

- inkorporasiya;
- konsolidasiya;
- məcəlləşdirmə.

İnkorporasiya dedikdə, hüquqi materialın, yəni qüvvədə olan normativ hüquqi aktların məcmuələrdə, toplularda və ya külliyyatlarda müəyyən qaydada elə birləşdirilməsi başa düşülür ki,

bu zaman aktların normativ məzmunu mahiyyətcə dəyişdirilmir. Sistemləşdirmənin bu üsulu nəticəsində qanunvericilik xaricən işlənilir və yeniləşdirilir

Konsolidasiya dedikdə, eyni növ münasibətlər sferasını tənzimləyən bir sıra normativ hüquqi aktların onların normativ məzmunu dəyişilmədən vahid normativ hüquqi aktda birləşməsi başa düşülür.

Məcəllələşdirmə dedikdə, dövlətin hüquqyaratma orqanlarının elə bir fəaliyyəti başa düşülür ki, bu fəaliyyət nəticəsində qüvvədə olan mövcud qanunvericilik hərtərəfli, köklü surətdə, həm xaricən, həm də daxilən yenidən işlənir, həmin qanunvericiliyə yeni, mühüm dəyişikliklər edilir və bu yolla vahid sistemləşdirilmiş normativ akt qanun yaranır.

Yuxarıda qeyd etdiklərimiz formalara nəzər salsaq bu gün üçün Azərbaycan Respublikasında əqli mülkiyyət hüququ sahəsində olan qanunvericilik aktlarının sistemləşdirilməsinin ən optimal variantının məcəllələşdirmə olmasını deyə bilərik. Hesab edirik ki, mümkün qədər qısa vaxt ərzində əqli mülkiyyət hüququ sahəsində bütün qanunvericilik aktlarını özündə ehtiva edən "Əqli mülkiyyət Məcəlləsinin" layihəsi hazırlanaraq Milli Məclisə təqdim olunmalıdır. Bunun nəticəsində həm bu sahədə olan qanunvericilik aktları beynəlxalq hüquq normaları və bu günümüzün tələblərinə uyğun olaraq yenidən hazırlanmış olacaq, həm də əqli mülkiyyət hüquqları vahid məcəllədə əks olunmaqla onlardan istifadə olunması xeyli rahatlaşacaq. Əqli mülkiyyət hüquqlarının bir çox formaları üçün ayrı-ayrı qanunvericilikdə analoji müddəaların çoxluğu nəticəsində həmçinin bu sahədə olan normativ hüquqi aktların həcmi xeyli azalmış olacaq.

**Biblioqrafiya**

1. " Azərbaycan Respublikasının Qanunvericilik Toplusu", № 8, 31 avqust 2006-cı il.

2. Muradov Ə.C. Azərbaycan və ÜTT: Xidmətlər". İqtisadiyyat və Sənaye nazirliyi. – Bakı: Adiloğlu nəşriyyatı, 2005. - 39 s.

3. Cekson J.H. Dünya Ticarət Təşkilatı: konstitusiya və hüquq. – London: Beynəlxalq İşlər Krallığı İnstitutu, 1998. - 193 s. (inqlis dilində)

4. Dumoulin İ.İ. Dünya Ticarət Təşkilatı. İqtisadiyyat, siyasət, hüquq. 2012. - 360 s. (rus dilində).

5. Dünya Ticarət Təşkilatının yaradılması barədə müqavilə. [Elektron resurs]. URL: https://www.wto.org/english/docs_e/legal_e/legal_e.htm. (inqlis dilində)

6. Qudkov İ., Mizulin N. ÜTT qaydaları: birbaşa fəaliyyət problemləri və pozuntulara görə məsuliyyət tədbirlərinin effektivliyi. ÜTT Qanunu, 2012, № 1, s. 11-18. (rus dilində)

**Rustamli F.A.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.64.90-98**
**UOT: 347.77**

## Normative analysis of intellectual property of national legislative basis and WTO system

**Abstract:** The general trend in relation to intellectual property is purposefully and consistently aimed at strengthening intellectual property rights and opportunities of their owners. To accelerate the process of integration into the world economic system by becoming a member of the WTO, to take advantage of the benefits provided to each other by WTO member countries,to carry out trade operations with most countries of the world in accordance with the general rules adopted by the WTO, to increase aid from developed countries as well asinternational organizations to the economic reforms carried out in the country, after the application of WTO rulesto attract more foreign direct investment and it is possible to use the WTO dispute settlement mechanism. At present, the process of Azerbaijan's accession to the WTO is in the completion stage. In the field of law, the harmonization of national legislation with the requirements of the relevant agreements of the WTO is conducted by the improvement of legislation (including the adoption of new laws), also by direct reference to existing WTO acts. The process of improving the legislation in the field of intellectual property rights continues in the Republic of Azerbaijan today. This process requires the adoption of new legislation, as well as the amendments to existing legislations. The primary reason for this is the constant change in the objects of intellectual property due to the rapid development of public relations. Another reason is joining the norms of international law in the field of intellectual property rights as in many areas of law in our country. Azerbaijan is interested in joining the WTO to expand the integration process and improve domestic and foreign trade.

**Keywords:** intellectual property; WTO; Azerbaijan Republic; national legislation.

## References

1. *"Azerbaycan Respublikasının Qanunvericilik Toplusu"* [Collection of legislative acts of Azerbaijan Republic]. № 8, 31 August 2006. (in Azerbaijani).
2. Muradov A.C.*"Azerbaycan və UTT: Xidmetler"* [Azerbaijan and WTO: Services]. İqtisadiyyat və Sənaye nazirliyi. Baku, Adiloglu Publ., 2005, 39 p. (in Azerbaijani).
3. Jackson J.H. The World Trade Organisation: constitution and jurisprudence. London, Royal Institute of International Affairs, 1998, 193 p.
4. Dumoulin I.I. World Trade Organisation. Economics, politics, law. 2012, 360 p. (in Russian).
5. Agreement establishing the World Trade Organization. Available at: URL: https://www.wto.org/english/docs_e/legal_e/legal_e.htm (müraciət tarixi: 08.07.2021) (accessed: 08.7.2021).
6. Gudkov I., Mizulin N. WTO Rules: Problems of Direct Action and Effectiveness of Measures of Responsibility for Violations. WTO Law, 2012, No. 1, p. 11-18. (in Russian).

♦ **Rustamli Fidan Ali –** doctoral student of the Institute of Law and Human Rights of Azerbaijan National Academy of Sciences, specializing in human rights (Azerbaijan). E-mail: legal@agf.az

**Рустамли Ф.А.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.64.90-98**
**УДК: 347.77**

## Нормативный анализ интеллектуальной собственности национальной законодательной базы и системы ВТО

**Аннотация**: Общая мировая тенденция интеллектуальной собственности целенаправленно и последовательно направлена на укрепление прав интеллектуальной собственности и возможностей их владельцев. Ускорить процесс интеграции в мировую экономическую систему, став членом ВТО, воспользоваться преимуществами, предоставляемыми друг другу странами-членами ВТО, проводить торговые операции с большинством стран в соответствии с общими правиламипринятыми ВТО,увеличить поддержку экономических реформ в стране международными организациями, а также развитыми странами, привлечь больше прямых иностранных инвестиций после внедрения правил ВТО и возможно использование механизма разрешения споров ВТО. В настоящее время близится к завершению процесс присоединения Азербайджана к ВТО. В области права приведение национального законодательства в соответствие с требованиями соответствующих соглашений ВТО и совершенствование законодательства (включая принятие новых законов), но также путем прямой ссылки на существующие акты ВТО. Сегодня в Азербайджанской Республике продолжается процесс совершенствования законодательства в области прав интеллектуальной собственности. Этот процесс осуществляется в форме принятия нового законодательства, а также поправок к действующему законодательству. Основная причина этого - постоянное изменение объектов интеллектуальной собственности в связи с бурным развитием связей с общественностью. Другая причина в том, что наша страна присоединилась к нормам международного права, как и во многих областях права, в том числе в сфере прав интеллектуальной собственности. Азербайджан заинтересован во вступлении в ВТО для расширения процесса интеграции и улучшения внутренней и внешней торговли.

**Ключевые слова:** интеллектуальная собственность; ВТО; Азербайджанская Республика; национальное законодательство.

### Библиография

1. Сборник законодательных актов Азербайджанской Республики, № 8, 31 августа 2006 г. (на азерб. яз.).
2. Мурадов А.Ю. Азербайджан и ВТО: услуги. Министерство экономики и промышленности. – Баку: Адилоглу, 2005. - 39 с. (на азерб. яз.).
3. Джексон Дж. Всемирная торговая организация: конституция и юриспруденция. – Лондон: Королевский институт международных отношений, 1998. - 193 стр. (на англ. яз.).

♦ **Рустамли Фидан Али кызы –** докторант Института права и прав человека НАНА по специальности «права человека» (Азербайджан). E-mail: legal@agf.az

4. Дюмулен И.И. Всемирная Торговая Организация. Экономика, политика, право. 2012. - 360 с.

5. Соглашение об учреждении Всемирной торговой организации. [Электронный ресурс]. Режим доступа: URL:https://www.wto.org/english/docs_e/legal_e/legal_e.htm. (на англ. яз.) (дата обращения: 08.07.2021).

6. Гудков И., Мизулин Н. Правила ВТО: проблемы прямого действия и эффективности, мер ответственности за нарушения. Право ВТО, 2012, №1. - С. 11-18.